**UOT 902**
**https://doi.org/10.59849/2218-4783.2025.1.119**

**HEYRAN HƏSƏNOVA**

# SİONİ TİPLİ KERAMİKANIN XARAKTERİSTİKASI VƏ MƏNŞƏYİ

*Naxçıvanın Eneolit abidələrinin xüsusilə Tumbultəpə və Bülövqaya yaşayış yerlərinin tədqiqi Sioni mədəniyyəti üçün xarakterik olan keramikanın Erkən və Orta Eneolit dövründə Naxçıvanda olduğunu və bu tip keramikanın Cənubi Qafqazın qədim mədəniyyətləri əsasında meydana gəldiyini deməyə imkan verir. Sioni tipli keramika Naxçıvanın Son Eneolit abidələrində çox azdır. Buna görə də Azərbaycanın Son Eneolit mədəniyyətlərini, Ovçulartəpə və Leylatəpə mədəniyyətini Sioni mədəniyyəti adlandırmaq tamamilə yanlışdır.*

**Açar sözlər:** *Naxçıvan, Sioni mədəniyyəti, Eneolit, Tumbultəpə, Bülövqaya, daraqnaxışlı keramika.*

**Giriş.** Son dövrlərdə aparılan araşdırmalardan görmək olar ki, Azərbaycanda, xüsusilə də Naxçıvan ərazisində Eneolit dövrü abidələri daha geniş şəkildə öyrənilir. Bu baxımdan Cənubi Qafqazda olan Eneolit dövrü abidələrinin bir-biri ilə olan əlaqələrinin daha dolğun şəkildə izlənilməsi, müqayisəli təhlillərinin aparılması baxımından əlverişli şərait yaranır. Neolit dövründən fərqli olaraq Eneolit dövründə maldarlığın daha çox inkişafı və yayılması insanlar arasında da daha çox iqtisadi-siyasi əlaqələrin genişlənməsində böyük rol oynadı [7, s. 95].

Erkən Eneolit dövrü Naxçıvan ərazisində Xalaf, Ubeyd, Dalmatəpə mədəniyyətlərinin regionda təsiri ilə özünü göstərir. Bu dövr üçün xarakterik olan, yaxın zamanlarda tədqiq olunmuş Naxçıvantəpə yaşayış yeri önəmli rol oynayır. Burdan aşkar olunan keramika nümunələri Dalmatəpə mədəniyyətinə aid olub onun xüsusiyyətlərini izləməyə imkan verir [5, s. 13-14].

Naxçıvanda Erkən və Orta Eneolit dövrünə aid maddi mədəniyyət nümunələri əsasən Bülövqaya, Uzunoba, Uçan Ağıl, Sələsüz, Dərəşahbuz və digər yaşayış məskənlərində aşkar olunmuşdur. Bu yaşayış məskənlərində Naxçıvantəpədən fərqli olaraq Dalmatəpə tipli keramikaya rast gəlinməmiş, lakin Xalaf Ubeyd mədəniyyəti üçün xarakterik keramika nümunələrini görə bilirik.

E. ə. V minilliyin ikinci yarısını və e. ə. IV minilliyin əvvəllərini əhatə edən Son Eneolit dövrü Naxçıvan ərazisində arxeoloji qazıntılar əsasında Ovçulartəpə, Tumbultəpə, Şorsu, Yeniyol, Zirincli yaşayış məskənlərində, kəşfiyyat xarakterli araşdırmalarla isə Sürümçək, Güney Ağıl, Çay Ağzı, Nuvars, Taxçalı, Sərin Bulaq, Qələm Bulaq, Naxışnərgiz, Məsməli Ağıl, Dəyirman yeri [1, s. 122-123] və digər abidələrdə aşkar olunmuşdur.

Son Eneolit dövrünü araşdıran bir çox elm adımı Cənubi Qafqazın bu dövr mədəniyyətini ümumi olaraq bəzən Sioni mədəniyyəti, bəzən Sioni-Çopi mədəniyyəti, bəzən də Sioni tipli yaşayış yerləri olaraq adlandırmışlar [8, s. 10]. Lakin araşdırmalar bu adlandırmanın düzgün olmadığını və Azərbaycanın, o cümlədən Naxçıvanın Son Eneolit mədəniyyətinin Sionidən fərqli olduğunu göstərir. Son illər Naxçıvanda aparılan tədqiqatlar, xüsusilə Tumbultəpə qazıntıları bu məsələyə aydınlıq gətirməyə imkan verir.

**Sioni keramikası.** Sioni Şərqi Gürcüstanın Marneuli rayonunda eyniadlı kəndin şimal kənarında yerləşir. Dağətəyi ərazilərdə yerləşən Sioni dəniz səviyyəsindən 600 m yüksəklikdədir. Sioni 1974-1979-cu illərdə Gürcüstan Milli Muzeyinin ekspedisiyası tərəfindən ilk dəfə arxeoloqlar M.Menadbe və T.Kiquradze tərəfindən aparılan qazıntılarda təsadüfən aşkar olunan keramika, tunc sancaqlar və daraq olan qəbir abidəsini aşkar olunmasından sonra diqqəti çəkmişdir [9, s. 323]. Sionidə qazıntılar 32 kv.m ərazini əhatə edirdi. Tədqiqatçılar 1970-ci illərdə Sioni qazıntılarının Zaqafqaziyada Eneolit dövrü üçün bir dönüş nöqtəsi olduğunu vurğulayırlar. Müəyyən zaman keçdikdən və araşdırmalardan sonra Sioni kompleksi Zaqafqaziyada Son Eneolit dövrünün sinonimi olaraq keçməyə başladı.

Sioni keramikasını tədqiqatçılar dörd qrupa ayırırlar. Bu keramikanın başlıca xüsusiyyəti anqoblanan və sərt bişirilmə üsuluna malik olub, ağız kənarı çərtmələrlə naxışlanmış, solğun qəhvəyi, qırmızı və sarı rəngdə olmuşdur. Keramikanın tərkibi əsasən mika, qum, kvars qatqılı gildən ibarət olmuş, bəzən isə az hallarda obsidian və saman qarışımlılara da rast gəlinmişdir. Keramikaın əksəriyyəti xaricdən, bəzi hallarda isə iç tərəfdən daraqvarı alətlə naxışlanması ilə fərqlənir (şəkil 1). Sioni yaşayış yerinin tədqiqatçıları olan T.Kiguradze və M. Menadbe daraqlanmış keramikanın Azərbaycan ərazisindəki Əlikөməktəpə və Keçili yaşayış yerinin keramikası ilə müqayisə edib e. ə. IV minilliyin ortasına tarixləndirmişlər [11, s. 116-117]. Sioni abidələrini isə ümumi olaraq e.ə. V minilliyin sonu IV minilliyin əvvəlinə aid edirlər [11, s. 114].




**Şəkil 1.** Sioni keramikası.

**Tumbultəpə keramikası.** Tumbultəpə yaşayış yeri Naxçıvan şəhərinin cənubunda, Naxçıvançayın sol sahilində, dəniz səviyyəsindən 833 m yüksəklikdə yerləşir. Bu yaşayış yerinin ərazisi Antik və Orta əsrlər dövrlərində qəbiristanlıq kimi istifadə olunduğundan Eneolit dövrü təbəqəsi müəyyən qədər dağıntılara məruz qalmışdır (V.B qazıntısı). Ərazidən aşkar olunan tapıntıların əsas hissəsini keramika təşkil edir. Yaşayış yerindən 3451 keramika nümunəsi aşkar olunmuşdur. Nümunələr arasında çəhrayı rəngdə bişirilmiş saman qatqılı keramika, çəhrayı rəngli qatqısız keramika, çəhrayı rəngli qum qatqılı keramika, boz və qara rəngli keramika və qəhvəyi rəngli keramikalara rast gəlinmişdir [2, s. 15]. Aşkar olunan keramika nümunələri üç qrupa ayrılmışdır. İkinci qrupa daxil olanların arasında Sioni mədəniyyətinə aid abidələrdə aşkar olunan keramika ilə oxşarlıq təşkil edən nümunələrə də rast gəlinmişdir. Bu keramikanın tərkibi qum və ya qum-saman qarışığı gildən hazırlanmışdır, əsasən qəhvəyi rəngdə bişirilmişdir. Bu qablar konusvari və ya silindrik formalı çölməklərdən ibarətdir. Bəzi qabların ağız hissəsi və ya gövdəsi deşiklərlə əhatələnmişdir. Bu tip qablara Naxçıvan ərazisindən Ovçulartəpədə, Yeniyolda, Zirinclidə, Şorsuda da rast gəlinmişdir. Bir sıra qabların isə ağız kənarı xaricə qatlanmış və qulaqcıqşəkilli qulpları vardır. Ağzının alt hissəsindən deşiklərinin olması və qulaqcıqşəkilli qulpların olması Son Eneolit dövrü abidələri üçün yenidir. Bu qrupa daxil olan keramikanın xarakteristik xüsusiyyətlərindən biri də müəyyən hissə-

sinin üzərində səthi bişmədən öncə daraqşəkilli alətlə düzəldilmiş nümunələrin olmasıdır (şəkil 2). Yuxarıda da qeyd etdiyimiz kimi Sioni mədəniyyətinə aid olan keramika da bir neçə qrupa bölünür. Bunlar arasında əksəriyyətini təşkil edən xaricdən, bəzən də içəridən daraq tipli alətlə naxışlanmış keramikadır. Naxçıvan ərazisində daraqşəkilli alətlə naxışlanmış keramika nümunələrinə isə hələ Neolit dövrünə aid olan I Kültəpə, Xələc [1, s. 76-77] kimi yaşayış yerlərində və Erkən Eneolit dövrünə aid olan Naxçıvantəpə ilə yanaşı, Erkən və Orta Eneolit dövrü yaşayış məskəni olan Bülövqayada da aşkar olunmuşdur. Tumbultəpə yaşayış məskənindən aşkarlanan keramikanın karbon analizlərinin nəticələrinə əsasən e. ə. 4267-4045-cı illərə aid olduğu məlum olmuşdur [8, s. 13].




**Şəkil 2.** Tumbultəpə keramikası: 1 – qara rəngli keramika; 2 – qırmızı rəngli saman qarışıq keramika.

**Bülövqaya keramikası.** Bülövqaya Babək rayonun Göynük kəndinin qərb hissəsində 1429 m hündürlükdə, Sarısu çayın kənarında yerləşən Erkən və Orta Eneolit dövrünə aid yaşayış yeri abidəsidir. Yaşayış yerinin ilk dəfə 2017-2018-ci illərdə beynəlxalq Azərbaycan-Fransa ekspedisiyasının rəhbərliyi ilə kəşfiyyat xarakterli yerüstü materiallar və arxeoloq V.Baxşəliyev tərəfindən ölçüsü 3×3 m olan kəşfiyyat qazıntısı əsasında arxeoloji tədqiqatı başlanmışdır [9, s. 375]. Aşkar olunan arxeoloji materialların əsas hissəsi keramikadan ibarət olmuşdur. Keramika nümunələri kasa, küpə, çölmək tipli qabların parçalarından ibarət olmuşdur. Kasaların da müxtəlif tipləri vardır ki, bunların arasında ağız hissəsinin kənarı dəyirmi və ya xaricə tərəf qatlanmış, qabarıq gövdəli olanlar var. Bunlardan birinin xarici səthi daraqvarı alətlə naxışlanmışdır. Bu araşdırmalardan sonra abidənin Eneolit dövrünə aid olması dəqiqləşdirilmişdir. Keramikanın sadə, qabartma, basmanaxışlı növləri aşkar olunmuşdur. Bunlar arasında boyalı, müxtəlif motivli nümunələrin olması isə xüsusi ilə diqqəti çəkmiş və bu tip keramikaların Dalmatəpə, Naxçıvantəpə və Urmiya gölünün cənubunda olan digər abidələrdən olan keramikalarla oxşarlığına əsasən Erkən və Orta Eneolit dövrünə aid olması qeyd edilmişdir. Bu oxşarlıqlar həm də Naxçıvan ərazisində yaşayan xalqların Yaxın Şərq ölkələri ilə olan əlaqələrini bizə göstərir [4, s. 51-52].

2023-cu il də yenidən aparılan qısa müddətli qazıntı işləri nəticəsində çox sayda keramika nümunələri heyvan sümükləri qalıntıları və obsidian məlumatı aşkar olunmuşdur. Bu tapıntılar əsasında keramika nümunələrini qruplara ayıraraq təhlil aparmaq nisbətən daha əlverişli olmuşdur [3, s. 141]. Keramika nümunələri boyalı və sadə qabartma naxışlı keramika olaraq iki hissədə qruplaşdırılmışdır. Aşkar olunmuş keramika arasında qabartma relyef kəmər üzərində barmaq basqısı ilə naxışlı nümunələr də vardır ki, bu tip naxışlılara Culfa Kültəpəsi yaşayış yerində də rast gəlinmişdir. Keramikanın tərkibi qum və saman qatqılı, açıq-çəhrayı rəngli olmuş yaxşı bişirilmişdir. Bu nümunələrin bəzisinin üzəri isə daraqvarı alətlə naxışlanmışdır. Ərazidən götürülən kömür analizlərinin nəticəsinə əsasən yaşayış yerinin e. ə. V minilliyə aid olduğu müəyyən edilmişdir.




**Şəkil 3.** Bülövqaya yaşayış yerinin daraqlı alətlə naxışlanmış keramikası.

2024-cu ildə isə bu ərazidə geniş şəkildə arxeoloq V.Baxşəliyevin rəhbərliyi ilə aparılan arxeoloji qazıntılar daha dəqiq tədqiqatların aparılmasına şərait yaratdı. Qazıntı zaman boyalı naxışlı keramika ilə yanaşı, kifayət qədər üzəri daraqvarı alətlə naxışlanmış (şəkil 3, 4) və gövdəsində qabartma relyef üzərindən barmaq basqısı ilə naxışlı nümunələr tapılmışdır. Bu tip keramikaların oxşarlarına Qinçi, Ovçulartəpə və Norşuntəpə abidələrində də rast gəlinmişdir [6, s. 93]. Sioni keramikalarından fərqli olaraq bu keramikalar daha çox saman və qum qatqılı gildən hazırlanmışlar. Aşkar olunan çox sayda boyalı keramika yerli istehsal olsa da, Ubeyd mədəniyyətinin təsirini açıq şəkildə bizə göstərir. Bülövqaya yaşayış yerinin tədqiqi mika qarışıqlı, çərtmə naxışlı və qulaqcıq şəkilli qulpların Sionidən daha əvvəl Naxçıvanda olduğunu və bu tip keramikanı Sioni mədəniyyəti adlandırmağın yanlış olduğunu deməyə imkan verir.




**Şəkil 4.** Bülövqaya yaşayış yerinin keramikası.

**Nəticə.** Araşdırmalara əsasən deyə bilərik ki, Sioni tipli keramikanın oxşarlarına Naxçıvan ərazisindəki müxtəlif abidələrdə rast gəlirik. Ancaq, bu o demək deyil ki, Cənubi Qafqazın Eneolit mədəniyyətini Sioni mədəniyyəti adlandırmaq olar. Əksinə Sioni mədəniyyətində biz Cənubi Qafqazın qədim mədəniyyətinin izlərini görürük. Bunu sadəcə Eneolit dövrü abidələri arasında olan əlaqələr kimi dəyərləndirmək daha məqsədə uyğun olar. Daraqvarı alətlə naxışlanmış keramikanın Bülövqayada olan nümunələrinin karbon analizlərinə əsasən e. ə. V minilliyin əvvəllərinə aid ol-

ması faktı, yəni Son Eneolit abidəsi olan Tumbultəpə keramikasından daha öncəki tarixi göstərməsi Naxçıvan ərazisində daraqvarı alətlə naxışlanmış keramikanın tarixinin Sioni keramikasından daha qədim dövrə dayandığını sübut edir. Bu Sioni tipli keramikanın ayrıca bir mədəniyyət olmadığını Son Eneolit mədəniyyətinin tərkib hissəsi olduğunu deməyə imkan verir.

## ƏDƏBİYYAT

1. Baxşəliyev V. Naxçıvan Arxeologiyası yeni tapıntılar işığında // Naxçıvan: Əcəmi, 2022, 372 s.
2. Baxşəliyev V., Nezahat C., Baxşəliyev E., Həsənova H. Sioni mədəniyyəti Tumbultəpədə arxeoloji qazıntılar kontekstində // Naxçıvan: Əcəmi, 2024, 184 s.
3. Baxşəliyev E. Bülövqaya yaşayış yerinin yeni tapıntıları // AMEA Naxçıvan Bölməsi, Elmi Əsərlər. İctimai və humanitar elmlər seriyası, Naxçıvan: Tusi, 2024, № 1, s. 141-147.
4. Baxşəliyev V. Naxçıvanda 2018-ci ilin arxeoloji tədqiqatları // Naxçıvan: Əcəmi, 2019, 104 s.
5. Baxşəliyev V., Baxşəliyev E. Dalmatəpə mədəniyyətinin mənşəyi // Naxçıvan: Əcəmi, 2023, 136 s.
6. Gökçen A. Son Eneolit dövrü abidələrinin xronologiyası // AMEA Naxçıvan Bölməsi, Elmi Əsərləri, 2021, № 3, s. 88-95.
7. Göyüşov R., Martinov A.İ. SSRİ arxeologiyası. Bakı: Maarif, 1991, 272 s.
8. Bahşaliyev V., Nezahat C., Bahşaliyev E., Hasanova H. Tumbultepe'de yapılan arkeolojik kazılar bağlamında Güney Kafkasya'da Sioni tipi çanak çömleğin değerlendirilmesi // TÜBA-AR, 2024, c. 34, s. 9-25.
9. Shapardon B.M. The Sioni cultural complex: Cultural complexity and interaction during The Transcaucasion Chalcolithic // School of Historical and Philosophical Studies, Universty of Melbourne, 2020, 861 s.
10. Бахшалиев В., Марро К., Бертон Р., Оранж М. Новые данные о связях древних поселенцев Нахчывана с ближним востоком // Российская Археология, 2024, № 1, с. 7-21.
11. Менадбе М., Кигурадзе Т. Археологические памятники села Сиони // Тиблиси: Мецниереба, 1981, с.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: h.hasanova.99@mail.ru***

**Heyran Hasanova**

## CHARACTERISTICS AND ORIGIN OF SIONI-TYPE CERAMICS

The investigation of the Chalcolithic monuments of Nakhchivan, specifically Tumbultepe and Bülövkaya settlements, enables us to assert that ceramics exhibiting characteristics of the Sioni culture were present in Nakhchivan during the early and Middle Chalcolithic period. This type of ceramics originated from the ancient cultures of the South Caucasus. Ceramics of the Sioni type are rare in the Late Chalcolithic monuments of Nakhchivan. As a result, it is completely incorrect to refer to the Late Chalcolithic cultures of Azerbaijan, the culture of Ovçular Tepe and Leyla Tepe as the Sioni culture.

**Keywords:** *Nakhchivan, Sioni Culture, Chalcolithic, Tumbultepe, Bülövkaya, comb-patterned ceramics.*

**Хейран Хасанова**

## ХАРАКТЕРИСТИКА И ПРОИСХОЖДЕНИЕ КЕРАМИКИ ТИПА СИОНИ

Изучение энеолитических памятников Нахчывана, особенно поселений Тумбултепе и Бюловгая, позволяет сказать, что керамика, характерная для культуры Сиони, была найдена в Нахчыване в период раннего и среднего энеолита, и этот тип керамики возник на основе древних культур Южного Кавказа. Керамика типа Сиони очень редка в памятниках позднего энеолита Нахчывана. Поэтому совершенно неправильно называть позднеэнеолитические культуры Азербайджана – Овчулартепе и Лейлатепе – культурой Сиони.

**Ключевые слова:** *Нахчыван, культура Сиони, энеолит, Тумбултепе, Бюловгая, гребенчатая керамика.*

*(AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 09.01.2025**
**Son variant 31.01.2025**